**DOI:** https://doi.org/10.59849/2957-3882.2023.1.62
**UOT: 060.119**

# MUSTAFA RUHİ ŞİRİN - TÜRK UŞAQ ƏDƏBİYYATINDA YENİ MƏRHƏLƏ KİMİ

**Samirə SƏFƏROVA***

***Açar sözlər:*** *Mustafa Ruhi Şirin, uşaq, uşaq ədəbiyyatı, nağıl, hekayə, esse*

## XÜLASƏ

Mustafa Ruhi Şirin uşaq ədəbiyyatı sahəsindəki əsərləri ilə yanaşı, uşaqlar üçün yazdığı şeir, nağıl, hekayə və məktub formasındakı əsərləri ilə də diqqət çəkir. O, uşaq ədəbiyyatının tarixi və inkişafı haqqında düşünmüş, nəzəriyyəsini formalaşdırmağa, metod müəyyən etməyə çalışmışdır. Araşdırma və təcrübələrini kitab şəklində nəşr etdirən Mustafa Ruhi Şirin fikirlərini öz uşaq kitabları üzərində tətbiq edir. Məqalənin girşində türk uşaq ədəbiyyatı tarixinə qısa nəzər yetirilir və Mustafa Ruhi Şirinin həyatı, fəaliyyəti və əsərləri tədqiq edilir. Daha sonra Mustafa Ruhi Şirinin uşaq və uşaq ədəbiyyatı haqqında fikirləri araşdırılır və məqalə nəticə ilə yekunlaşdırılır.

## Giriş

Türkiyədə uşaq ədəbiyyatı müzakirələrinin tarixi yenidir. XVIII əsrin ortalarında Qərbdə uşaq və gənclər ədəbiyyatı yaranmağa başladığı halda, hələ XIX əsrin sonlarına qədər uşaqlar üçün türk ədəbiyyatı kitabı yazılmayıb. Buna baxmayaraq, Şinasinin La Fonteyndən (1856) "Qurd və Quzu nağılı" və Əhməd Lütfinin Daniel Defoun "Robenson hekayəsi"nin (1864) tərcümələri ilə müasir türk uşaq ədəbiyyatının başladığını iddia edənlər də vardır.

Uşaq ədəbiyyatı termininin Türkiyədə nə vaxt işlənməyə başladığı hələ də müəyyən edilməmişdir. Mövcud araşdırmalara görə Əli Nüsrətin (1874-1912) "Şûrâ'yı Ümmet" (1908) qəzetində uşaq və ədəbiyyat əlaqəsi mövzusunda bir neçə məqalə yazdığı məlumdur. Satı bəyin (1880-1969) "Tedrisat-ı İptidaiye Mecmuası"nda bir məqalə yazmış, "ədəbiyat-ı ətfal (uşaq ədəbiyyatı)" ifadəsini geniş şəkildə izah etmişdir. Əli Ülvinin (1881-1975) "Uşaqlarımıza Neşideler" (1912) kitabının ön sözündə yazdığı məqalə də türk uşaq ədəbiyyatının tədqiqi baxımından diqqətəlayiqdir (1, s.21).

Türkiyədə uşaq ədəbiyyatı müzakirələri 1970-ci ildən sonra daha intensiv xarakter aldı. Bu dövürdə Türk uşaq ədəbiyyatındakı çox şaxəli fəaliyyətləri ilə Mustafa Ruhi Şirin ağıla ilk gələn addır.

Mustafa Ruhi Şirin 1955-ci ildə Trabzonda anadan olub, 1978-ci ildə Ankara İqtisadiyyat və Ticarət Elmləri Akademiyası, Jurnalistika və İctimaiyyətlə Əlaqələr Liseyini, Radio və Televiziya Proqramı mütəxəssisi ixtisasını bitirib. 1977-ci ildə işə başladığı TRT-də uzun illər prodüser, menecer və məsləhətçi vəzifələrində çalışıb. Uşaqlar üçün bir çox radio və televiziya proqramları hazırlayan Ruhi Şirinin bu təcrübələri onun uşaq və uşaq ədəbiyyatına istiqamətlənməsində təsirli olub. Yazıçılıq fəaliyyətinə 1976-cı ildə başlayan Ruhi Şirinin uşaqlar üçün ilk kitabı 1983-cü ildə nəşr olunub. Uşaqlar üçün audio-vizual və ədəbi əsərləri ilə tanınan Mustafa Ruhi Şirin 1990-cı ildə "Uşaqlar Vəqfi"ni qurdu və o vaxtdan bəri bütün uşaq problemlərinə institusional və peşəkar yanaşmaya lokomativlik etdi. Həm uşaqlar, həm də böyüklər üçün əsərlər yazan müəllif, ünsiyyət və media mədəniyyəti, uşaq və uşaq ədəbiyyatı mədəniyyətinə diqqət yetirir. Mustafa Ruhi Şirin ədəbiyyat nəzəriyyəsinə diqqət yetirən və dünyaya uşağın gözü ilə baxmağı bacaran ədibdir. Digər tərəfdən, o, ünsiyyət eksperti, uşaq hüquqları müdafiəçisi və uşaq mərkəzli media qiymətləndirmələri edən qeyri-hökumət təşkilatı lideri kimi müraciət olunmağa layiq şəxsiyyətdir (2, s.39).

* *AMEA ak.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail: Samire_1980@mail.ru*

Mustafa Ruhi Şirin uşaqlar və onların problemlərinə, uşaq ədəbiyyatının nəzəri ölçüsünə, uşaqlar üçün müxtəlif janrlarda çoxlu əsərlər yazır. Mustafa Ruhi Şirinin müxtəlif dövrlərdə işlətdiyi təxəllüslər "Zeki Kuş", "Aytac Yıldız", "Selim Uğurlu" və "Mümtaz Güleryüzdür". Mustafa Ruhi Şirinin 14 ədəbiyyat nəzəriyyəsi, 15 ədəbi-bədii yaradıcılığı olmaqla cəmi 29 əsəri vardır. Mustafa Ruhi Şirin hesab edir ki, uşaq kitabları hər cəhətdən cəlbedici və mütaliəyəyə həvəsləndirici olmalıdır. Bu səbəbdən də öz kitablarını nəşr edərkən yaxşı illüstratorlarla işləməyə diqqət yetirmiş, bəzi nağılları kiçik yaş qrupları üçün şəkilli kitablar kimi nəşr etdirmişdir.

Ədib "Ulduz sayan ağac" (kollektiv şeirlər), "Nağıl məktubları" (məktub), "Qar altında bir kəpənək" (nağıl), "Ququlu saatın göyərçini" (nağıl), "Hər uşağın bir ulduzu var" (hekayə), "Mavi xəyalpərəst Uşaq" (nağıl), "Uşağım sevsin" (esse), "Gecə qarmon çalan pişik" (hekayə), "Dünyaya gülən adam" (Molla Nəsrəddin lətifələri), "Bülbül və leylək" (nağıl), "Quş ağacı" (nağıl), "Dünya Qardaş Sobe" (esse)" əsərlərində uşağın nöqteyi-nəzərini əsas götürərək türk uşaq ədəbiyyatına yeni nəfəs gətirmişdir.

Mustafa Ruhi Şirin uşaq və uşaq ədəbiyyatına dair çoxlu əsərlər yazıb. Yazıçı bu əsərlərində uşağın tarixi inkişafı, uşağın qavrayışı, ünsiyyət vasitələrinin uşağa təsiri, ailə və uşaqların əsas problemləri və onların həlli yolları, uşaq ədəbiyyatı anlayışı, uşaqlıq dövrü ilə bağlı müzakirələr kimi bir çox mövzuya toxunmuşdur. Bunlardan "Uşaq ədəbiyyatı kitabçası" "Uşaq mədəniyyəti" "Oxuma vərdişi və media spirali" əsərləri Mustafa Ruhi Şirinin redaktorluğu ilə hazırlanıb. Bu əsərlərdə uşaq ədəbiyyatı, uşaq ədəbiyyatının tarixi inkişafı, uşaq ədəbiyyatımızın vəziyyəti və problemlərinin həlli yolları, uşaq ədəbiyyatının nümunələri yer alıb.

**Mustafa Ruhi Şirinin uşaq və uşaq ədəbiyyatı haqqında fikirləri**

M.Ruhi Şirin "uşaq və uşaq ədəbiyyatı" mövzularına yanaşarkən, həm Qərb, həm də Türkiyə mədəniyyət tarixinin təqdim etdiyi ənənəvi və müasir arqumentlər vasitəsilə uşaq ədəbiyyatının yaranma və inkişaf proseslərini təsnif edir və əsas diqqəti uşaq ədəbiyyatına aid fəlsəfi anlayışlara yönəldir.

Uşaq ədəbiyyatının tərifindəki konseptuallaşdırmalar kimi, onun təsnifatında da çoxlu qeyri-müəyyənliklər və komplekslər vardır. Mustafa Şirin uşaq ədəbiyyatının ədəbiyyata daxil olub-olmaması ilə bağlı müzakirələri Qərbdə 16-cı əsrdən sonra ortaya çıxmağa başlayan uşaq ideyası və uşaqlıq dövrünün önəmi ilə əlaqələndirir. Qərbdə ədəbiyyat cərəyanlarının uşaq ədəbiyyatını da gündəmə gətirdiyini vurğulayır (4, s.114). Buna görə də o, "uşaq" ideyasının diqqət mərkəzində olması ilə uşaq ədəbiyyatının inkişafı arasında paralellik yaradır.

Mustafa Ruhi Şirinə görə, dünyada birlikdə yaşamağa davam edən üç fərqli uşaqlıq anlayışı vardır: ənənəvi uşaqlıq, müasir uşaqlıq və post-modern uşaqlıq.

Ənənəvi uşaqlıq anlayışında uşaqlar böyüklər kimi böyüyən və böyüklərin istədiyi kimi təhsil alan bir obyektdir. Bu mərhələdə uşağı təsvir etmək üçün xüsusi sözlər yoxdur. Uşaqlıq hətta bioloji kateqoriya da sayılmır. Yeddi-səkkiz yaşa qədər davam edən körpəlikdən birbaşa yetkinliyə keçilir. Şifahi məlumat üstünlük təşkil edir, uşaqlar və böyüklər eyni məlumatla qidalanırlar. Uşaqlar böyüklərin nağıllarını dinləyərək böyüyür. Fərqli ədəbiyyatları yoxdur.

Mustafa Ruhi Şirinə görə, modern uşaqlıq İntibah və Maarifçilik dövründən sonra hazırlanmış müasir Qərb sivilizasiyasının tezisidir. Onun ən əsas sualı - "Uşaqlar necə böyüyür və inkişaf edir?" Müasir bir tezis olan bu tezis uşaqları standartlaşdıran bir anlayışla, yəni müasir uşaqlıq paradiqması ilə böyüdən dəyərlər toplusuna malikdir. "Müasir yetkinlik paradiqması" kimi də ifadə oluna bilən bu paradiqma uşaqla böyükləri bir-birindən ayırır və onları müxtəlif sosial və intellektual kateqoriyalar kimi qəbul edir. Bu fikrin əsası uşağın böyüklərdən fərqli olduğunun qəbul edilməsidir.

Postmodern uşaqlıq anlayışında uşağa fərdi xüsusiyyətləri ilə ayrıca bir fərd kimi yanaşılır. Fərdi fərqliliklərin və azadlıqların əhəmiyyətinin artdığı günümüzdə uşaqların bu fərqlilikləri və azadlıqları yaşaması, hüquqlarını bilməsi postmodern uşaqlıq anlayışının əsas paradiqmalarını təşkil edir (5, s.30-34).

Şirinə görə üç mühüm texnoloji ixtira müasir uşağın dərkinə təsir edir. Bunlar mətbəə, televizor və kompüterdir.

Mustafa Ruhi Şirin mətbəənin ixtirası ilə inkişaf edən yazılı mədəniyyət və ona əsaslanan informasiyaların tipoqrafik insan anlayışını ortaya qoyduğunu müdafiə edir. Tipoqrafik uşaq isə şifahi mədəniyyətin intensivliyinə baxmayaraq, yazılı mədəniyyətin formalaşdırdığı uşaqdır.

Ruhi Şirin elektron uşaqlığın televiziyadan geniş istifadə ilə formalaşdığını bildirir. Şirinə görə, "yazılı mədəniyyət irsi üzərində yüksələn vizual ünsiyyət vasitələri qısa zamanda dünyaya təsir etməz və mətbəə ilə formalaşan uşağın hakimiyyətini məhv etməyə müvəffəq olur".

Kompüterin ixtirası və internetin yayılması ilə televiziyanın gündəlik həyatda yeri getdikcə azalmağa başlayıb. Bu vəziyyət informasiyanın daşınma sürətini artıraraq, məlumat əldə etməyi asanlaşdırsa da, insanları bu texnologiyalara məhkum edir və virtual aləmdə yaşamağa sövq edir. Şirinə görə, "Uşaqlar böyüklərdən daha çox sərbəst və asanlıqla informasiya əldə etdiyimiz bir dünyada yaşamağı sevsələr də, bu vəziyyət uşaqları insanlardan uzaq və texnologiyaya bağlı fərdlər kimi yaşamağa məcbur edir. Şirin informatik uşağın informasiya texnologiyalarından asılı olduğunu bildirir və ortaya çıxan uşağı belə təsvir edir: "Oxumaq vərdişi olmayan, görüntü illüziyalarına öyrəşmiş informatik uşaq yükləndiyi informasiyadan istifadə etməkdən uzaqdır. Nə savadı var, nə də sosyal media yazarıdır"(5, s.41).

Yuxarıda qeyd edilənləri ümumiləşdirən Mustafa Ruhi Şirin uşaq ədəbiyyatını üç təsnifatlı mərhələyə ayırır. Bunlardan birincisi uşaqlar üçün yazılmasa da, uşaqlar üçün klassik əsərlərdir. Bu məqamda uşaq klassiklərinin klassik adlandırılmağa layiq kanonik əsərlər olub-olmaması sualına diqqət çəkən Şirin bu mövzunun nisbi mahiyyətinə də diqqət çəkir. İkincisi, oxuyucusu uşaq olan kitabların mərhələsindən bəhs edən müəllif bütün nağılları uşaq ədəbiyyatı kimi dəyərləndirir. Üçüncü mərhələ, subyekti uşaq olan innovativ uşaq ədəbiyyatı mərhələsi kimi müəyyən edilmişdir. Bu mərhələ Ruhi Şirin təsnifatında yeni uşaqlıq mərhələsi kimi izah edilir (2, s.33-35).

M. Ruhi Şirin uşaq ədəbiyyatının təsnifatında yenilikçi uşaq ədəbiyyatını irəli çəkir. Ona görə yenilikçi uşaq ədəbiyyatının əsaslandırılması uşaq və ədəbiyyat anlayışının ciddi tədqiqini tələb edir. Ruhi Şirinin israrla üzrərində durduğu məsələ odur ki, hal hazırda nə uşağı, nə də ədəbiyyatı müəyyən etmək mümkün deyildi. Uşağın ədəbiyyatda subyektə çevrilməsində ən böyük pay uşaq gerçəkliyinə bələd olan uşaq ədəbiyyatı yazarlarına məxsusdur. Yeni uşaq ədəbiyyatının haradan başlayıb, harada bitdiyi hələ də mübahisəlidir. Modern dövrdə uşaqlıq dövrünün tədricən qısalması ilə bağlı uşaq ədəbiyyatı sahəsinin daralması tezisi öz qüvvəsini saxlamaqda davam edir (2, s.38).

İnkişaf edən, mütərəqqi, transformativ və dirilişçi uşaq ədəbiyyatının siması uşaq kimi həmişə gələcəyə yönəldilməlidir. Ötürmək istədiyi fəlsəfəni gizlədə bilən, sənətkarın (oyunçu-S.Səfərova) baxışını fəlsəfi baxışdan üstün tutan ədəbiyyat, uşağa nə uşaq deməli, nə də aldatmaq məqsədi güdməlidir. Mixayıl Anders Helmut Endenin fantastik təfsiri ilə desək, yenilikçi uşaq ədəbiyyatı "şəhadət barmağını yelləməklə uşağa əxlaq dərsi keçməyən azad bir oyun" olmalıdır (2, s.38).

**Nəticə**

Mustafa Ruhi Şirinin uşaq və uşaq ədəbiyyatı ilə bağlı fikir və düşüncələri araşdırıldığında, Şirinin uşağı həyatının mərkəzinə yerləşdirən bir mövqedə olduğu görünür. Maraqlıdır ki, Mustafa Ruhi Şirinin uşaqlar üçün yazdığı əsərlər müxtəlif janrlardadır. O, roman, teatr və səyahətdən başqa uşaq ədəbiyyatının bütün janrlarında əsərlər yazıb. Şirin uşaq ədəbiyyatı mövzusundakı yazılarının əsas məqsədi "uşaq ədəbiyyatı" deyil, "uşaqlar üçün uşaq ədəbiyyatı"dır. Ruhi Şirinin yazıları cəmiyyətin ehtiyac duyduğu milli-mənəvi dəyərlərə sadiq, ümumbəşəri dəyərləri mənimsəmiş, hüquq və vəzifələrinə həssaslıqla yanaşan insan tipi yetişdirmək məqsədi daşıyır.

## ƏDƏBİYYAT


1. Mustafa Ruhi Şirin. Edebiyat ve Çocuk Edebiyatı. Edebiyatın Amacı ve İşlevi. https://tdk.gov.tr/wp
2. Mustafa Ruhi Şirin. Çocuk Modernleşmesi ve Çocuk Edebiyatı. https://tdk.gov.tr/wp-content/uploads/2016/06/20160608.pdf
3. Mehlika Karagözoğlu. Mustafa Ruhi Şirin'in çocuk edebiyatına dair görüşleri ve eserleri. İstanbul. 2010.
4. Beyhan Kanter. Çocuk Edebiyatının Teorik Zemininin İnşası ve Mustafa Ruhi Şirin'in Görüşleri Üzerine Bir Değerlendirme. Çocuk ve medeniyet. 2018/2 https://dergipark.org.tr/en/download/article-file/1335747
5. Yasin Mahmut Yakar. Mustafa Ruhi Şirin'in türk çocuk edebiyatındaki yeri ve eserlerinin eğitsel değeri üzerine bir inceleme. https://tez.yok.gov.tr/UlusalTezMerkezi/tezDetay.jsp?id=e7pEM_zvROpm2ulnozWdg&no=7DBWPbR-HDKy0dXjpPMBWg
6. Fahri Temizyürek. Arzu Çevik. Mustafa Ruhi Şirin'in Çocuk Edebiyatı Sahasındaki Eserlerinin Dil ve Kavram Bağlamında İncelenmesi. https://oaji.net/articles/2014/691-1402642516.pdf



## РЕЗЮМЕ

***Самира САФАРОВА***

***Мустафа Рухи Ширин - новый этап в турецкой детской литературе***

***Ключевые слова:*** *Мустафа Рухи Ширин, ребёнок, детская литература, сказка, повесть, эссе*

Привлекают внимание произведения Мустафы Рухи Ширин в области детской литературы, а также его произведения в виде стихов, рассказов и писем для детей. Он исследовал думал об истории и развитии детской литературы, пытался сформулировать её теорию и определить её метод. Мустафа Рухи Ширин, публикует свои исследования и опыт в виде книги, применяет идеи к своим детским книгам. Во введении статьи сделан краткий обзор в истории турецкой детской литературы и деятельность и творчество Мустафы Рухи Ширин.



## SUMMARY

***Samira SAFAROVA***

***Mustafa Ruhi Shirin as A New Stage in Turkish Children's Literature***

***Keywords:*** *Mustafa Ruhi Shirin, child, children's literature, fairy tale, story, essay*

Mustafa Ruhi Shirin attracts attention with his works in the field of children's literature, which include poems, stories and letters for children. He thought about the history and development of children's literature, tried to formulate its theory, and defined a method. Publishing his research and experiences as a book, Mustafa Ruhi Shirin applied his ideas to children's books. In the introduction of the article, a brief excursion into the history of Turkish children's literature is made, and the life, activities, and creativity of Mustafa Ruhi Shiri are studied. Then Mustafa Ruhi Shirin's ideas about children and children's literature are examined and the article concludes with a short conclusion.